# "Qarabağ"ın Avropa səyahəti davam edir

## Rəqiblər Yunanıstan, Almaniya və Fransa klublarıdır






**Artıq uzun illərdir Ağdamın "Qarabağ" komandası ölkə çempionatlarında və Avropa miqyaslı yarışlarda xalqımıza və milyonlarla pərəstişkarlarına inamlı oyun, parlaq qələbələr, xoş əhvali-ruhiyyə və qürur hissi bəxş edir.**

Sevindirici haldır ki, bu mövsümdə də istisna olmadı. Artıq xeyli müddətdir öyrəşdiyimiz mənzərə yenə təkrarlanır. Belə ki, UEFA-nın himayəsilə keçirilən mötəbər klub turnirlərinə vəsiqə qazanan digər komandalarımız yarışlarda adətən statist rolunu oynayır və elə ilk, yaxud ikinci təsnifat mərhələlərindən sonra kənarda qalırlar...

Artıq 9 ildir futbol aləmində "Qarabağ" praktiki olaraq təkbaşına ölkənin idman şərəfini layiqincə qoruyur, Azərbaycanın Avropadakı klub reytinqini zənginləşdirir. Bu illər ərzində ağdamlılar 7 dəfə Avropa Liqası, 1 dəfə UEFA Konfrans Liqası və 1 dəfə UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanıb. Ötən il isə qrupdan çıxaraq Konfrans Liqasının pley-off mərhələsində mübarizə aparıblar.

"Qarabağ" bu mövsümdə də üzərinə düşən yükü uğurla və ləyaqətlə daşıyıb. Çempionlar Liqasının ilk üç mərhələsində fantastik əzmkarlıq, yüksək fiziki hazırlıq və filiqran, nəfis texnika nümayiş etdirən futbolçularımız müvafiq olaraq Polşa, İsveçrə və Macarıstan çempionları - "Lex" (Poznan), "Sürix" (Sürix) və "Ferentsvaroş" (Budapeşt) komandaları üzərində parlaq qələbələr qazanaraq Avropanın bu tanınmış klublarını mübarizədən kənarlaşdırıblar.

Yarışların pley-off mərhələsində isə rəqib Çexiya çempionu "Viktoriya" (Plzen) komandası idi. Ağdamlılar hər iki qarşılaşmada təcrübəli və güclü rəqibdən üstün oyun nümayiş etdirsə də, Bakıda hesab açılmadı, Plzendə isə birinci hissədən qalib ayrılsaq da, yekunda banal bəxtsizlik və elementar 1-2 səhv səbəbindən məğlub olduq. Lakin bunadək "Qarabağ" artıq UEFA Avropa Liqasının qrup mərhələsində yerini təmin etmişdi.

Dünən isə Avropa Liqasının qrup mərhələsinin püşkatma mərasimi keçirilib və bütün iştirakçılar bəlli olub. Pley-off mərhələsinin cavab matçlarından sonra qrupda mübarizə aparacaq 32 komanda müəyyənləşib. Bununla da Azərbaycanın turnirdəki yeganə təmsilçisi "Qarabağ"ın bütün potensial rəqiblərinin adına aydınlıq gəlib. Püşkdən əvvəl Ağdam klubu 2-ci səbətdə PSV, "Feyenoord" (hər ikisi Niderland), "Renn", "Monako" (hər ikisi Fransa), "Real Sosyedad" (İspaniya), "Malmö" (İsveç) və "Ludoqorets" (Bolqarıstan) komandaları ilə birgə yer alıb.

Saat 15:00-da isə Türkiyənin İstanbul şəhərində qrup mərhələsinin püşkatma mərasiminə start verilib. Nəticədə "Qarabağ"ın rəqibləri məlum olub. Bunlar - "Olimpiakos" (Yunanstan), "Frayburq" (Almaniya) və "Nant" (Fransa) klublarıdır.

Komandalar G qrupunda mübarizə aparacaqlar.

1925-ci il martın 10-da Pirey şəhərində yaradılmış "Olimpiakos" Yunanıstanın ən titullu klubudur. 47 qat Yunanıstan çempionu, 28 dəfə ölkə kubokunun qalibidir. Klubun ev stadionu 32115 tamaşaçı tutumuna malik "Karaiskakis" arenasıdır.

1904-cü ildə yaranmış "Frayburq" klubu Almaniyanın Frayburq-im-Braysqau şəhərini təmsil edir. Ötən il Bundesliqada 6-cı yeri tutub.

Qeyd edək ki, 1991-ci ildən 2007-ci ilə qədər -17 il ərzində komandanı Volker Finke çalışdırıb və bu, bir klubda məşqçiliyin davamlılığı ilə bağlı Almaniya peşəkar futbolunda rekord göstəricidir. Finke dövründə klub iki dəfə UEFA Kubokunda mübarizə aparmaq hüququ qazanaraq tarixinin ən böyük uğurunu qazanıb.

Maraqlıdır ki, püşkatmadan bir neçə saat öncə "Frayburq"un baş məşqçisi Kristian Ştrayx Almaniyanın "Bild" qəzetinə müsahibəsində "Qarabağ"la bir qrupa düşməyi arzulayıb: "Azərbaycanda olmamışam. Azərbaycan təmsilçisi ilə qarşılaşmaq maraqlı olardı. Səfərləri səbirsizliklə gözləyirəm. Görmədiyimiz yeni stadionlara gedə bilərik".

Nəhayət, "Nant"a gəldikdə isə, bu klub Fransanın eyniadlı şəhərini təmsil edir. 1943-cü il aprelin 12-də yaradılıb. Ev oyunlarını 35000-dən çox tamaşaçı tutumuna malik "Stade Beaujoire-Louis Fontenot" stadionunda keçirir. Səkkizqat Fransa çempionu, ölkə kubokunun üçqat qalibidir. Bu il Fransa kubokuna sahiblənib.

Beləliklə, "Qarabağ"ın Avropa səyahəti davam edir. Uğurlar, "Qarabağ"!

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*